

... O elə səmimi, elə mehriban, elə istiqanlı bir cavan idi ki, onu bir dəfə görən bir daha heç vaxt yaddan çıxara bilməzdi...

# Hələ çox körpülər salınacaq...

**Azərbaycanın milli qəhrəmanı, unudulmaz tələbə yoldaşımız Kazımağa Kərimovun əziz xatirəsinə**

**Yaşasaydı indi 60 yaşını qeyd edəcəkdi. Ancaq namərd düşmən gülləsi buna imkan vermədi, Kazımağanı sıralarımızdan çox erkən apardı. O, işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına həlak olaraq əbədiyyətə qovuşdu, onu sevən, qiymətləndirən dostlarının, tanışlarının, yaxınlarının qəlbinə isə sağalmaz yaralar vurdu...**

...Mən Kazımağanı o kövrək tələbəlik illərindən tanıyırdım. Bakı Dövlət Universitetinin 3 saylı tələbə yataqxanasında qalırdıq. Başqa-başqa fakültələrdə oxusaq da, daim bir yerdə olurduq, dostluq edirdik. Məndən bir yaş kiçik olsa da, məndən bir kurs yuxarıda oxuyurdu, məndən böyük görünürdü. İri gözləri, aydın baxışları, qıvrım saçları vardı. Hündür boylu, cüssəli, sağlam bir oğlan idi. İdmanla məşğul olurdu. Qarabuğdayı sifəti onu bir az da yapışıqlı göstərirdi. Gur səsi vardı.

Xoşu gəlməyən, ona toxunan bir şey olanda bərkdən danışardı. Bərkdən danışanda onu tanımayan adamda ilk baxışda qaba təəssürat yaradırdı. Əslində isə, Kazımağa çox sadə, ürəyitəmiz, mehriban bir gənc idi. Səliqəli geyinərdi. Dostluqda, yoldaşlıqda sədaqətli idi. Yalan danışanı xoşlamazdı. Əliaçıq oğlan idi. Yoldaşları üçün son qəpiyini də xərcləməyi əsirgəməzdi. Onunla bir dəfə yoldaşlıq edən ondan ayrılmaq istəmirdi. Ona görə də geniş ətrafı var idi. Dostları çox idi. Yataqxanada ən yaxın can sirdaşı beyləqanlı Əzizağa Tağıyev idi. Bütün gizli sirri, söhbəti onunla olardı.

***

Kazımağa uşaqla uşaq, böyüklə böyük idi. Özündən yaşca çox böyük olan tanınmış adamlar arasında da dostları vardı. Yazıçı-publisist Qulu Xəlilovla aralarında olan səmimi münasibətlərindən həvəslə danışardı. Qulu Xəlilovun çətin uşaqlıq həyatı keçirməsindən, dözümlü insan olduğundan, mərdliyindən söhbət salardı.

Sonralar, böyük alimin öz həyatından bəhs edən "Yaşamaq istəyirəm" povestini oxuduqdan sonra Kazımağanın belə böyük iradə sahibi ilə dostluğuna qibtə edərdik. Xalq yazıçısı Əli Vəliyevlə çəkdirdiyi fotoşəkli göstərərdi. Şəkildə Əli Vəliyev əlini Kazımağanın çiyninə qoymuş vəziyyətdə dayanmışdı.

Şəkli göstərərkən çox vaxt zarafatla qürrələnib deyərdi ki, "görün mənim çiynimə kim əlini qoyub?" Jurnalistika fakültəsində oxuyan yaxın tələbə yoldaşlarının da çoxunu tanıyırdıq. Tanınmış jurnalist, "Mədəni-maarif" jurnalının baş redaktoru Yaşar Vəliyevlə, tanınmış telejurnalist Telli Pənahqızı ilə məni Kazımağa tanış etmişdi. Telli Pənahqızı hələ tələbəlik illərindən Telli Araz imzası ilə universitetdə məşhur idi.

Universitetin tədris korpusları əsasən iki ünvanda yerləşirdi. Humanitar fənlər üzrə fakültələr keçmiş Kommunist küçəsində, dəqiq elmlər üzrə fakültələr isə yuxarıda, keçmiş Patris Lumumba-23 ünvanında idi. Humanitar fakültələrdən təkcə kitabxanaçılıq fakültəsi yuxarı binada yerləşirdi. Dərslər də ikinci növbədə keçirilirdi.

Son vaxtlar Kazımağa ilə yuxarı binada tez-tez rastlaşırdıq. Bizim fakültənin ətrafında çox hərlənirdi. Az müddət sonra məlum oldu ki, fakültəmizdə onun həmyerlisi olan Flora adlı bir qızdan xoşu gəlir.

Flora orta boylu, yumru sifətli, yaraşıqlı bir qız idi. Qara uzun saçları vardı, az danışardı. Danışanda da səsi çox astadan eşidilərdi. Həmişə aşağı baxardı, çox ciddi görkəmi vardı. Ondan adi söz soruşmağa da adam ürək eləmirdi. Kazımağa uzun müddət ürəyini ona aça bilmədi. Bu qızın dalınca uzaqdan "süründü".

Hay-küylü, sözlü-söhbətli, pəhləvan görkəmli gənc bu zərif məxluqu yaxından görəndə yarpaq kimi əsirdi, boğazı quruyurdu. Vaxt hər şeyi həll etdi, məhəbbət qalib gəldi. Valideynlərinin xeyir-duası ilə nişan taxıldı. Bir-birinə çox yaraşan bu cütlüyə çoxları həsəd aparırdı. Bu əlamətdar hadisəni bir neçə dostları ilə yığışıb "Kvant" yeməkxanasında xüsusi qeyd etdik...

***

Kazımağa Qubadlını çox sevirdi. Həmişə Qubadlıdan danışıb təriflərdi. Rayonun təbiətindən, səmimi insanlarından, suyundan, torpağından, bu torpağın böyük insanlar, görkəmli söz adamları yetişdirdiyindən fərəhlə danışardı. Doğulub boya-başa çatdığı Sarıyataq kəndindən danışmaqdan doymazdı.

Uşaqlıq illərində valideynlərinə kömək üçün ot biçininə, mal-qara dalınca getməyindən, yuxuya gedərək qoyun-quzunu itirib evə əliboş qayıtmağından, dumana düşüb azaraq başqa kəndə gedib çıxmasından danışardı. Başına gələn gülməli hadisələri o qədər sadəlövhcəsinə danışardı ki, bu gülməli hadisələr sonradan bizim zarafat mövzumuz olardı.

Böyük qardaşları Şahları, Vaqif müəllimi çox istəyirdi. Hamısının adını xatırlamıram. Şahsuvar dilindən düşməzdi. Anasını yuxusunda görən günü çox kövrək olurdu. Anasına nənə deyərdi. Bir də görürdün səhər tezdən gəlib deyirdi: "Bu axşam nənəmi yuxumda görmüşəm, mən getdim Sarıyatağa!" Şabranlı Məcid Əliyev də Əli Kərimin "Qaytar ana borcunu" şeirini necə təsirli söyləyirdisə bundan sonra Kazımağanı yoldan saxlamaq heç cür mümkün olmurdu. Danışardı ki, Həkəri çayını keçmək üçün kəndimizdə körpü yoxdur.

Sarıyatağa getmək üçün gərək gedib, Xanlıq kəndindəki körpüdən keçəsən, dolanıb gələsən. Ya da soyunub çaydan keçməlisən. Tez-tez deyərdi ki, ali təhsilimi qurtaran kimi rayonumuza gedəcəm. Hansı işdə işləməyimdən asılı olmayaraq bu çayın üstündən Sarıyatağa keçmək üçün körpü tikdirəcəm.

Mən Sarıyataq kəndində iki dəfə olmuşam. Birinci dəfə Kazımağanın böyük qardaşı Şahlar avtomobil qəzasında həlak olanda. Onda ağır, faciəli gün idi. Qız-gəlin şivən qoparırdı, kədərli qardaşların sifətinə baxmaq olmurdu. Möhsüm kişini ilk dəfə onda görmüşəm. Əllərini üzünə tutub, hönkürtü ilə ağlayan bu kişinin çiyinlərinin necə atıldığı indi də gözümün qabağındadır. Onda heç kəsin ağlına belə gəlməzdi ki, bu kənd, bu el-oba üçün daha faciəli günlər olacaq... Sarıyatağa ikinci səfərim isə...



***

Təyinatımızı almışdıq, hərə bir tərəfə dağılmışdı. Hamının başı öz işinə qarışmışdı. Xəbər tutdum ki, Kazımağanın toyudur. Özü də məni arzulayır. Sarıyataq kəndinə ikinci səfərim sərgüzəştlə keçdiyindən xoş xatirə kimi həmişəlik yadımdadır...

Qatardan düşüb Sarıyatağa getməliydim. Bu kənddə bir dəfə olduğumdan hansı istiqamətə gedəcəyimi bilirdim. Hər ehtimala qarşı yerli sakinlərdən soruşdum. Dedilər: biz də o tərəfə gedirik. Hələlik maşın olmayacaq. Günün ikinci yarısında xəbər gəldi ki, bir azdan "alabaş" gəlib buradan keçəcək.

Nəhayət ki, gözlədiyimiz avtobus gəlib çıxdı. Adamlar doluşdu avtobusa. Basabas idi. Məndən başqa əlində yük olmayan adam yox idi. Çamadandan tutmuş həsir zənbilə kimi. Toyuq-cücə, qaz, ördək və sair. İri bir toğlunu zorla içəri salan bir kişidən sonra mən də avtobusa minə bildim. Özümə birtəhər yer edib, küncə sıxıldım. Avtobus yerindən tərpəndi...

Kəndlər bir-bir arxada qalırdı. Yadımda deyil hansı kənd idi, avtobus dayandı. Gördüm deyirlər ki, Şahmalı Kürdoğlunun kəndidir. Özü də adamlarla dayanıb maşının yanında. Xeyli getdikdən sonra avtobusda adam seyrəldi, oturacaqların birində əyləşdim.



**Əzizağa Tağıyev, Kazımağa Kərimov, Cahangir Abdullayev**

Günəş qürub edirdi. Qaranlıq olacağından, avtobusdan düşəcəyim yeri səhv salacağımdan qorxurdum. Elə də oldu. Günəş dağların arxasında yox oldu, hava qaraldı, sürücü işıqları yandırdı. Yalnız qarşıda yol görünürdü. İçəridə işıqlar yandığından ətrafda heç nə görə bilmirdim. Narahatlığım çoxaldı.

